BAKI parklari

BAKI parkları

ISBN 978-9952-548-99-0

Kitabda paytaxtımızın gözəlliyinə gözəllik qatan Bakı bulvarı, şəhərimizin bəzəyi olan gözəl parklar, bağlar və meydanlar haqqında məlumat verilir, onların inkişaf və dəyişim prosesi izlənilir. Oxucular kitab-albomda təqdim edilən fotoşəkillər vasitəsilə bu gözəl məkanların müasir görünüşü, aparılmış abadlıq işləri və yeniliklərlə tanış olacaq, eyni zamanda insanların rahatlığına xidmət edən bu yaşıl məkanlar haqqında maraqlı faktlar öyrənəcəklər.

Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.

ŞƏRQ-QƏRB

www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az

BAKI

parklari

İnsan təbiətdən öyrənir,
onun havası ilə pərvəriş tapır,
ağıla dolur, zənginləşir, təzələnir,
təmizlənir.

ULU ÖNDƏR HEYDƏR ƏLİYEV

Bakı şəhəri artıq parklar,
bağlar şəhərinə çevrilmişdir.

AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ İLHAM ƏLİYEV

BAKI

parkları

BAKININ SİMASI
yaşıl parklarımız

Azərbaycanın paytaxtı olan gözəl Bakımızın simasını müəyyənləşdirən, ona özünəməxsusluq verən təkcə müxtəlif memarlıq üslublu, Şərq və Avropa mədəniyyətini, estetikasını, memarlıq dəyərlərini bir araya gətirən binalar deyil. Yaxud müasirliyin və qədimliyin bir mərkəzdə qovuşması da deyil. Bütün bunlar, əlbəttə ki, Bakımızın simasının incə, fərqli, qeyri-adi cizgilərini müəyyən edir. Amma bu simaya qəribə bir sərinlik, gözoxşayıcılıq, rahatlıq bəxş edən onu qoynuna almış yaşıllıqları, bağları, parkları, bulvarıdır. Onlar olmadan Bakı fərqli görünərdi. Bakılıqdan uzaqlaşardı. Ruha sərinlik və rahatlıq bəxş edən görünüşündən məhrum qalardı.

Bu gün insanların istirahət məkanına, havasına, rahatlığına çevrilən bu zümrüd gözəlliklərin yaradılması prosesi Ümummilli liderimiz Heydər Əliyevin hakimiyyətdə olduğu illərdə böyük vüsət almışdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hakimiyyəti illərində isə yeni parkların tikintisi və rekonstruksiyası prioritet istiqamətlərdən biri olmuş, gündən-günə artan və artması məqsədli bir şəkildə proqramlaşdırılan oksigen bolluğu – parklar, bağlar və bulvar bütün şəhəri öz ağuşuna almışdır. Onun gözəlliyinə gözəllik qatmışdır.

Təsadüfi deyil ki, Bakı şəhəri ərazisində 300-dən çox park mövcuddur. Son 20 il ərzində məhz Azərbaycan Respublikası Prezidentinin şəxsi təşəbbüsləri sayəsində və onun tapşırıqları əsasında 96 yeni park salınıb. 84 parkın isə əsaslı təmir olunaraq sakinlərin və qonaqların ixtiyarına verilməsi bir başqa cür böyük nailiyyətdir. Bundan başqa, Bakı şəhərində son illər ərzində IDEA İctimai Birliyinin təşəbbüsü ilə 200-ə yaxın məhəllələrarası park yaradılıbdır ki, bu da sakinlərin yaşadıqları ərazidə asudə vaxtlarını səmərəli keçirmələrinə şərait yaradır.

Bakı parklarının gözəlləşməsində qurulan fəvvarələrin də öz yeri var. 71 parkda fəvvarə, 2 parkda isə musiqili fəvvarə quraşdırılıb ki, onlar da parkların gözəlliyinə xüsusi estetik dəyər və daha böyük sərinlik qazandırır. Bakı parklarının 4-də göl də yaradılıb. Bu faktların hər biri Bakının yaşıllaşdırılması sahəsində necə böyük işlər görüldüyünün sübutudur.

Bakımızın simasının ayrılmaz hissəsi, əsas atributu olan parklarımız haqqında hələ çox kitablar yazılacaq, onların gündən-günə artan gözəlliyi hələ çox musiqilərin, bəstələrin, şeirlərin yazılmasına səbəb olacaq.

Ölkə Prezidentinin sərəncamı ilə “Ağ Şəhər bulvarı” layihəsi çərçivəsində əvvəllər “Qara şəhər” adlanan və bir çox sənaye müəssisələrinin yerləşdiyi ərazidə müasir standartlara uyğun şəkildə Ağ Şəhər bulvarı inşa edilib. Bulvarın uzunluğu 2,7 km, sahəsi isə 33 hektardır. Ərazidə basketbol, voleybol və iki futbol meydançası, həmçinin açıq havada idman qurğularından ibarət trenajor sahəsi mövcuddur. Qeyri-adi görünüşlü dibçəklər yerləşdirilib, minlərlə ağac və bəzək kolu əkilib, oturacaqlar quraşdırılıb. Burada insanların istirahəti üçün hər cür şərait var. Ağ Şəhər bulvarında infrastruktur ən müasir tələblər səviyyəsindədir.





Dənizkənarı Milli Park – Bakı bulvarı ərazisində ilk tikinti işlərinə XIX əsrin əvvəllərində başlanılıb və sahil boyu 650 metr uzunluğunda tikilməsi üçün memar Qasım bəy Hacıbababəyov tərəfindən mühəndis və planlaşdırma işləri aparılıb. 1909-cu ildə mühəndis Məhəmməd Həsən Hacınskinin rəhbərliyi ilə Bakı bulvarının salınması işlərində məşhur memar Adolf Eyxler də fəal iştirak edib. İlk bulvarın ərazisi "Daş körpü"dən (indiki Azneft meydanından) "Qafqaz və Merkuri" şirkətinin körpüsünə (A.Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrının binasına) kimi olan ərazini əhatə edirdi. 1930-cu illərdə bulvarın ikinci hissəsi tikilib.

1969-cu ildə – Ümummilli lider Heydər Əliyev hakimiyyətə gəldikdən sonra bulvarın ərazisi genişləndirilərək 3,7 kilometrə çatdırılıb. Ulu Öndərin 29 dekabr 1998-ci il tarixli, 50 nömrəli Fərmanı ilə Bakı şəhərindəki Dənizkənarı bulvara Milli Park statusu verilib. Nazirlər Kabinetinin 29 dekabr 2001-ci il tarixli 132 nömrəli qərarına əsasən, Dənizkənarı Milli Park ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri sırasına daxil edilib.

Milli Parkın ərazisinin genişləndirilməsi və inkişafı dövlət başçısı İlham Əliyevin daim diqqət mərkəzində olub. Onun tapşırığı və rəhbərliyi ilə Dənizkənarı Milli Parkın ərazisində abadlıq və yaşıllaşdırma işləri aparılıb. 2015-ci ildə bulvarın iki istiqamətdə genişləndirilməsi işi başa çatıb. Birinci – Bibiheybət istiqamətində Bayıl bulvarı, digəri – Dəniz Ticarəti Limanından "Bulvar" hotelə kimi uzadılan Ağ Şəhər bulvarıdır. Hazırda bulvarın uzunluğu 16,7 kilometrə çatdırılıb, ümumi yaşıllıq sahəsi isə 94,63 hektar təşkil edir.











Müasir istirahət mərkəzləri içərisində inşasına 2013-cü ildən başlanılan Bayıl bulvarının özünəməxsus yeri var. 2015-ci il iyunun 8-də açılışı olan bu istirahət məkanının ümumi sahəsi 24 hektardır. Uzunluğu 2,3 kilometr olan Bayıl bulvarında 16 hektar yaşıllıq zonası salınıb, müasir işıqlandırma və suvarma sistemləri quraşdırılıb, müxtəlif istirahət, iaşə və yeni mədəniyyət obyektləri inşa edilib. Sakinlərin rahatlığı üçün ərazidə velosipedçilər üçün xüsusi yer ayrılıb. İstirahət mərkəzində yaradılan infrastrukturun ən müasir tələblər səviyyəsində olması sakinlərin rahatlığına xidmət edir. Bayıl bulvarından Xəzərə açılan mənzərə həm sakinlərin, həm də turistlərin zövqünü oxşayır.



Müasir Bakının rəmzlərindən biri hesab olunan Heydər Əliyev Mərkəzi Kompleksinə mərkəzin binasından əlavə, 13,58 hektar ərazini əhatə edən park daxildir. Onun 7,5 hektarı qazon sahəsidir. Şəhərin istirahət və əyləncə üçün ən gözəl yerlərindən biri hesab olunan bu ərazidə 200-dən çox ağac və 7000 kol əkilib, landşafta mükəmməl uyğunlaşan 2 dekorativ hovuz və süni göl yaradılıb. Mərkəzin binası ilə önündəki park arasında olan ahəngdarlıq bu kompleksi dünyanın ən gözəl məkanlarından birinə çevirir. Parkda dövlət və beynəlxalq əhəmiyyətli tədbirlər, sərgilər, konsertlər təşkil edilir.

I

aku





I Baku







Sakinlərin istifadəsinə verilən bu yeni park paytaxtın unudulan, istifadəsiz ərazisində yaradılıb. Sahəsi 4 hektardır. Ərazisində 50 mindən çox müxtəlif növ ağac, kol və gül əkilib. İnsanların rahat gəzintisi üçün parkda uzunluğu 1200 metr olan piyada yolları çəkilib. Digər parklardan fərqli olaraq, burada piyadalar üçün estakada üzərində 147 metr uzunluğunda körpü salınıb, şəhər mənzərəli iki terras düzəldilib. İstirahət məkanında müasir standartlara cavab verən fəvvarə inşa edilib, iaşə obyekti, sanitar qovşaq və inzibati bina tikilib. Ərazinin relyefi çox çətin olduğundan burada sürüşmə ehtimallarının qarşısının alınması məqsədilə istinad divarı çəkilib. Parkda azyaşlı sakinlərin rahat istirahəti üçün müasir idman və uşaq əyləncə qurğuları quraşdırılıb.

CƏMBƏRƏKƏND
PARK





Nobel qardaşlarının təşəbbüsü ilə XIX əsrin sonlarında Bakıətrafı qəsəbə olan Qara şəhərdə Abşeron bağ-park memarlığının ən gözəl nümunəsi olan "Neft villası" ("Villa Petrolea") adlı bağ yaradılıb. 1991-ci ildən – Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra parka Nizami Gəncəvinin adı verilib.

Prezident İlham Əliyevin 19 aprel 2021-ci il tarixli Sərəncamı ilə parkda yenidənqurma işləri aparılıb. Hazırda 11,2 hektar əraziyə malik bağda müasir söhbətgahlar, müxtəlif ölçülü oturacaqlar, idman qurğuları quraşdırılıb, uşaq əyləncə mərkəzi, süni göl yaradılıb. 1938-ci ildən mövcud olan amfiteatr və yay kinoteatrı bərpa edilib. Yay kinoteatrının qarşısında çay daşlarından qədim tipli qala divarları tikilib. Parkın ətrafında yerləşən bir və ikimərtəbəli inzibati binalar əsaslı təmir olunub, ərazidə minlərlə ağac, kol və dekorativ bəzək bitkiləri əkilib. Parkda iki fəvvarə kompleksi və müasir işıqlandırma sistemi qurulub.

Nizami Gəncəvi Parkı



Bakı şəhərinin Xətai rayonunda yerləşən Heydər parkı 2022-ci ildə əsaslı yenidənqurma işlərindən sonra sakinlərin istifadəsinə verilib.

Yenidənqurma işləri çərçivəsində ərazisi genişləndirilərək 4 hektardan 14 hektara çatdırılan parkda 30 mindən çox ağac və gül kolları əkilib, 7 km piyada və 1,1 km velosiped zolağı salınıb, işıq dirəkləri, oturacaqlar quraşdırılıb, məlumat lövhələri yerləşdirilib. 2500 kvadratmetr sahədə avtodayanacaq yaradılıb. Ərazidə olan şəlalə və fəvvarə kompleksi təmir edilib.

Ziyarətçilər üçün piknik sahələrinin də mövcud olduğu parkda uşaqlar və böyüklər üçün 5 fərqli məkanda idman və əyləncə sahələri salınıb, lazımi avadanlıqlar quraşdırılıb. Parkdakı monitor yenisi ilə əvəzlənib, mədəni-kütləvi tədbirlərin təşkili üçün 918 yerlik amfiteatr qurulub.

Heydər parkının bir özəlliyi də ondan ibarətdir ki, bu park əsl dostluq rəmzidir. Belə ki parkın ərazisində bir neçə ölkəyə məxsus guşə yaradılıb.

HEYDƏR ƏLİYEV
HEYDƏR ƏLİYEV-Mən şəxsi həyatımı, ailəmi, övladlarımı bir tərəfə qoydum, xalqın mənafeyi üçün özümü odun içinə atdım.

HEYDƏR PARKI



AKADEMİK
ZƏRİFƏ ƏZİZ QIZI
ƏLİYEVA

Akademik Zərifə Əliyevanın adını daşıyan parkın sahəsi 6,2 hektar, ətrafındakı zeytun bağlarının sahəsi isə 6 hektardır. 2000-ci ildə parkda tikinti işləri aparılıb. 2008-ci ildə həyata keçirilən yenidənqurma işlərindən sonra möhtərəm Prezidentimiz cənab İlham Əliyevin iştirakı ilə parkın yenidən açılışı olub. İstirahət məkanında akademik Zərifə Əliyevanın abidəsi ucaldılıb. Abidənin ətrafında fəvvarə, həmçinin idman meydançası var. Azərbaycanın müxtəlif iqlim qurşaqlarının faunasına aid 2000 ağac və 4000 yaşıl kol, rəngarəng güllər əkilib. Uşaqlar üçün oyun meydançası salınıb, sakinlərin rahat istirahəti üçün oturacaqlar quraşdırılıb.

BU AĞACI
AZƏRBAYCAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
İLHAM ƏLİYEV
əkmişdir.
25 APREL 2008-Cİ İL

AKADEMİK
ZƏRİFƏ ƏZİZ QIZI
ƏLİYEVA



Gənclik parkı 2021-ci il avqustun 26-da açılıb. Meşə tipli park 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac əkilib və yaşıllıqlar salınıb. Parkda həm uşaqlar, həm də böyüklər, eyni zamanda fiziki məhdudiyyətli şəxslər üçün idman və əyləncə sahələri yaradılıb, attraksionlar quraşdırılıb. Ərazidə "Ürəklər" adlı kompozisiya, bağlı və açıq futbol meydançaları, piknik məntəqələri, qaçış üçün cığırlar və velosiped yolları yaradılıb. Park böyük olduğu üçün burada məlumatlandırıcı və istiqamətləndirici lövhələr quraşdırılıb. Ərazinin ən görməli yerlərindən biri də parkda yaradılmış süni göldür.





LOVE

Parkın torpağı mərmər tozundan və neft tullantılarından təmizləndikdən sonra ərazidə 2016-cı ilin iyunundan tikinti işlərinə başlanılıb və oktyabrın 6-da sakinlərin istifadəsinə verilib. Ümumi sahəsi 3,2 hektar olan parkın uzunluğu 288, eni 110 metrdir. Yaşıllaşdırma zamanı IDEA İctimai Birliyinin təşəbbüsü ilə parkda ağacəkmə kampaniyası keçirilib. Ərazidə avtomat suvarma sistemi, su və yanğın çənləri, müşahidə kameraları quraşdırılıb, müasir işıqlandırma sistemi yaradılıb.

Parkda təbii daşlardan yonulmuş heykəllər landşaftla vəhdət təşkil edir. 14 heykəlin hər biri xüsusi dizayn və üslubu ilə fərqlənir. İstirahət guşəsinin ərazisində yaradılmış şəlalədə dekorativ və təbii daşlardan istifadə olunub. Uşaqlar üçün əyləncə meydançası və yelləncəklər quraşdırılıb. Kompleksin ərazisində iki yerdə avtodayanacaq, bir dekorativ keçid və ictimai iaşə obyekti fəaliyyət göstərir. Ərazidə yanğınsöndürən maşınlar və velosipedçilər üçün xüsusi hərəkət zolaqları da salınıb.

Rahim
Chopurov
2016

LOVE

Dövlətimizin başçısının tapşırığına əsasən, 4 hektar ərazidə salınan park 2021-ci il fevralın 1-də sakinlərin istifadəsinə verilib. Parkın yaşıllıq zonası ərazinin 70 faizindən çoxunu əhatə edir. Parkda uşaqların əylənməsi üçün oyun meydançaları, istirahət guşələri, piknik üçün xüsusi yerlər salınıb, müxtəlif və rəngarəng çiçəklər, növbənöv ağac və kollar əkilib.

Meşə tipli parkın salınması şəhərin sosial-ekoloji vəziyyətinin yaxşılaşması baxımından da çox əhəmiyyətlidir. Belə ki bu park paytaxtın ekoloji vəziyyətinin yaxşılaşdırılması tədbirlərinin mühüm tərkib hissəsi olmaqla yanaşı, ətraf ərazilərdə yaşayan sakinlərin istirahətlərinin yüksək səviyyədə təşkil edilməsinə də geniş imkanlar yaradır.





Yeni yolların çəkilməsi, yaşıllaşdırma və abadlıq işlərinin aparılması layihəsi çərçivəsində 2016-cı ilin avqustundan Mərkəzi parkın salınması da planlaşdırılmışdır. Parkın birinci hissəsi 22 may 2019-cu ildə istifadəyə verilib. Avstriyanın məşhur memarı Yans Hoffmanın layihələndirdiyi Mərkəzi parkın ən mühüm xüsusiyyəti böyük bir ərazidə piyadalara yolu keçmədən, maneəsiz hərəkət imkanının yaradılmasıdır. Park həmçinin şəhərin simasını daha da gözəlləşdirməyə, paytaxt sakinlərinin və turistlərin mədəni istirahətinə xidmət edir.

Ümumilikdə 20 hektar ərazini əhatə edən parkın 14 hektarında yaşıllıq salınıb. İstirahət məkanında oyun meydançası, şahmat, nərd və idman qurğuları, yelləncəklər, futbol meydançası var. Parkda 9 fəvvarə yaradılıb, işıqlandırma sistemləri və təhlükəsizlik kameraları quraşdırılıb. 2 mindən çox ağac, 137 mindən çox gül və kol bitkiləri əkilib, drenaj xətləri quraşdırılıb. Parkın ərazisində 347 yerlik yeraltı avtomobil dayanacağı tikilib.

Giriş / Entrance





Park 2013-cü il may ayının 10-da istifadəyə verilib. Burada park, bağ, fəvvarələr kompleksi, 4500 avtomobil tutumuna malik yeraltı dayanacaq var. Ümumi ərazisi 7 hektar olan parkın uzunluğu 1 kilometr, eni isə 150 metrdir. İstirahət məkanının 20 min kvadratmetr sahəsinə qranit və keramit plitələr döşənib, 35 min kvadratmetrlik əraziyə isə münbit torpaq tökülüb. Burada ən müasir tələblərə cavab verən 5 fəvvarə kompleksi var. Parkda 2 minə yaxın ağac, 10 mindən çox bəzək kolu və növbənöv güllər əkilib. Qeyri-adi dizaynla bəzədilmiş üç ictimai iaşə obyekti də sakinlərin istifadəsindədir.

AZƏRBAYCAN DÖVLƏT AKADEMİK MİLLİ DRAM



HOTEL







Paytaxtın mərkəzində – ən gözəl məkanlarından birində yerləşən Dağüstü park 2013-cü ildə əsaslı şəkildə yenidən qurulub. Ərazidə yaşıllaşdırma işləri aparılıb, köhnə ağaclar saxlanılmaqla, yeni dekorativ bitkilər əkilib, təzə yollar və cığırlar salınıb. Parkın ərazisində müasir işıqlandırma sistemi quraşdırılıb. Buradan Bakı buxtasını, şəhər və Dənizkənarı Milli Parkın valehedici mənzərəsini izləmək mümkündür. Memarlıq baxımından zövqlə qurulan xiyaban və terraslar bir-biri ilə pilləkənlərlə əlaqələndirilir, meydançalar isə Xəzər dənizinin panoramını daha geniş nümayiş etdirir. Dağüstü parkla Azneft meydanını funikulyor birləşdirir.









Bakının Səbail rayonunda yaşıllıq ərazidə sakinlərin asudə vaxtlarını səmərəli keçirmələri üçün salınan yeni tipli parkda mövcud ağaclardan və əlverişli relyefdən maksimum istifadə edilib. Ərazi sürüşmə zonasına daxil olduğundan torpağın möhkəmləndirilməsinə xüsusi diqqət yetirilib.

Pilləli şəlalə ətrafdakı mənzərə ilə harmoniya təşkil edərək Azərbaycanın dağ rayonlarının ab-havasını xatırladır. Rəngarəng işıqlarla bəzədilən bu şəlalə axşamlar xüsusilə gözəl görünür. Əsasən söyüd ağaclarından ibarət olan parkda 2009-cu ildə aparılan rekonstruksiya işləri zamanı yeni yaşıllıq sahələri salınıb, müasir işıqlandırma sistemi quraşdırılıb, oturacaqlar qoyulub.





İçərişəhər metro stansiyasının yaxınlığında yerləşən Filarmoniya bağı XIX əsrin əvvəllərində salınmağa başlayıb. Zaman keçdikcə bu ərazi şəhərin "yaşıl adası"na çevrilib. Qubernatorun evi bağla üzbəüz olduğu üçün şəhər sakinləri buranı "Qubernator bağı" adlandırıblar. Filarmoniyanın binası tikildikdən sonra isə əraziyə "Filarmoniya bağı" adı verilib.

4,6 hektar ərazidə yerləşən bağda ilk abadlıq işləri ötən əsrin 70-ci illərində, əsaslı yenidənqurma işləri isə 2009-cu ildə aparılıb. Bağın yenidən qurulması zamanı burada nadir ağaclar (palıd, sidr və göyrüş) və bir sıra ekzotik bitki növləri, Türkiyə və İtaliyadan gətirilən qızılgül kolları, kameliyalar əkilib, yeni suvarma sistemləri quraşdırılıb. Ərazidə bitən ən qədim ağaclar Xan çinar və tutdur.











Azərbaycanın görkəmli şairi Mirzə Ələkbər Sabirin adını daşıyan Sabir bağı XX əsrin 20-ci illərində memar H.Ələsgərovun layihəsi əsasında "Kaspi" nəşriyyatının yerində salınıb. 1922-ci ildə qala divarlarının yaxınlığında Sabirin heykəli ucaldılıb. 1950-ci illərdə bağın ərazisi xeyli genişləndirilib, abadlaşdırılıb və yaşıllıqlar salınıb. 1958-ci ildə aparılan yeniliklərlə əlaqədar Sabirin daha təkmil və yeni heykəlinin hazırlanması fikri irəli sürülüb. Bu dəfə heykəl qala divarlarının yaxınlığında deyil, bağın mərkəzində qoyulub. Son illərdə aparılan yaşıllaşdırma və abadlaşdırma işlərindən sonra bağ paytaxt Bakının ən mənzərəli guşələrindən birinə çevrilib.

SABİR

MIRZƏ ƏLƏKBƏR
SABİR
TAHİRZADƏ
1862-1911





Böyük mütəfəkkir Mirzə Fətəli Axundzadənin adını daşıyan bağ İçərişəhər metro stansiyasının yaxınlığında yerləşir. 1930-cu ildə bu köhnə Bakı bağında Azərbaycan dramaturqu, yazıçı, filosof və maarifçi M.F.Axundzadənin heykəltaraş Pyotr Sabsay tərəfindən hazırlanan abidəsi ucaldılıb. Sahəsi 1300 kvadratmetr olan bağ 2008-ci ildə yenidən qurulub. Bərpadan sonra ərazidə mindən çox gül və bəzək kolları əkilib, orijinal çıraqlar quraşdırılıb, mərmər cığırlar salınıb. Sakinlərin dincəlməsi üçün oturacaqlar qoyulub.

OBA

Görkəmli Azərbaycan şairi Xaqani Şirvaninin şərəfinə 1991-ci ildən "Xaqani bağı" adlandırılan parkda hələ 1870-ci illərdə molokanlar müxtəlif bölgələrdən mal gətirərək ticarətlə məşğul olurdular. Buna görə də əhali ərazini ilk vaxtlar "Molokan bağı" adlandırıb. 1960-cı illərdə bağda "Üç gözəl" heykəli quraşdırılıb. Üç elementi – günəş, hava və suyu ifadə edən abidə 1990-cı illərdə dağıdılsa da, yenidən bərpa edilib. Hazırda bağın memarlıq-landşaft kompozisiyasının əsası "Üç gözəl" heykəllər qrupu ilə əyrixətli formada olan su hovuzundan ibarətdir.

Bağ kiçik olsa da, rahat olduğundan şəhər sakinlərinin sevimli istirahət məkanına çevrilib. Ərazidə yaşıllıq salınıb, ağacların ətrafında xeyli kol və gül əkilib, uşaqlar üçün attraksionlar quraşdırılıb, insanların rahat dincəlməsi məqsədilə oturacaqlar qoyulub.





INGLOT

Bir vaxtlar boş, baxımsız yer olduğu üçün “Quru bağ”, bəzən isə “Parapet” (fransızcadan tərcümədə “çəpər” deməkdir) adlandırılan Fəvvarələr meydanı XIX əsrdə salınıb. 1868-ci ildə Bakı qubernatoru Mixail Kolyubakinin təşəbbüsü ilə memar Qasım bəy Hacıbababəyovun layihəsi əsasında yenidən qurulan əraziyə bir müddət “Kolyubakin meydanı” da deyilib. Ərazi 1950-ci illərin yenidənqurma işlərindən sonra yaşıllaşdırılmış meydana çevrilib. 1984-cü ildə bağın yenidən qurulmasında növbəti mərhələ başlayıb. Memar və rəssam R.Seyfullayevin ideyasına əsasən, parkın ərazisi qırmızıya çalan xüsusi beton plitələrlə örtülüb, terras və pilləkənlər ağ daşlarla haşiyələnib, memar-landşaft kompozisiyasının mühüm hissəsini fəvvarələr təşkil edib. Meydanın mərkəzində yerləşən fəvvarə heykəltaraşlıq kompozisiyası ilə bəzədilib. 2010-cu ildə Fəvvarələr meydanı tamamilə yenidən qurulub, ərazisi genişləndirilib.

INGLOT
INGLOT
N
NV
V
SV
S
SO
O
NO

NIZAMI
GANCAVI

Bakının mərkəzində yerləşən və ətrafında tarixi tikililər olan bu bağ 22 min kvadratmetr sahəni əhatə edir. 2009-cu ildə əsaslı təmir işlərindən sonra bağın 12 min kvadratmetr ərazisinin asfalt örtüyü ləğv edilərək yerinə qranit-mərmər döşənib. İstirahət məkanında sakinlərin asudə vaxtlarını daha yaxşı keçirmələri üçün hər cür şərait yaradılıb.

Sahil bağında Şərq üslubunda üçpilləli, böyük fəvvarə kompleksi quraşdırılıb. Əraziyə müxtəlif hava şəraitinə davamlı materiallardan hazırlanmış oturacaqlar qoyulub. Bağdakı ağaclar və güllərin çoxu Hollandiyadan gətirilib.





Zabitlər parkı Bakıdakı ən köhnə parklardan biridir. Əvvəllər “bulvar” adlandırılan park faşizmə qarşı döyüşlərdə həlak olan qəhrəmanların xatirəsinə 1941–45-ci illərdə salınıb. 2009-cu ildə parkda abadlaşdırma işlərinə başlanılıb. Əsaslı yenidənqurmadan sonra 2011-ci ildə yenidən açılıb.

4 hektar sahəsi olan Zabitlər parkı təmirdən sonra tamamilə dəyişib. Burada orijinal işıqlandırma sistemi, fəvvarə quraşdırılıb və bu gün Bakının mərkəzi parklarının vizit-kartına çevrilən bürünc heykəllər qoyulub.



Park abadlıq, yenidənqurma işlərindən sonra 2014-cü il dekabrın 25-də yenidən sakinlərin istifadəsinə verilib. Ərazidə geniş yaşıllaşdırma işləri aparılıb, uşaqlar üçün iki oyun meydançası, böyüklər üçün idman sahəsi yaradılıb, çoxillik ağac, gül və bəzək kolları əkilib. Meydançalarda idman qurğuları, müxtəlif əyləncə vasitələri quraşdırılıb.

Park salınan zaman milli memarlıq üslubu ilə müasirlik tam uzlaşdırılıb, istirahət məkanı orijinal elementlər və formalarla zənginləşdirilib. Ərazidə fəvvarələr, süni şəlalələr və xüsusi dizaynla hazırlanmış bulaqlar mövcuddur.

YASAMAL PARKI







Paytaxtın Nərimanov rayonu ərazisində yerləşən bu park müasir dövrün tələblərinə uyğun əsaslı yenidənqurmadan sonra 2019-cu il oktyabrın 1-də sakinlərin istifadəsinə verilib.

Ümumi sahəsi 6,5 hektar olan parkda istər uşaqlar, istərsə də böyüklərin istirahəti üçün hər cür şərait mövcuddur. Uşaq əyləncə mərkəzi və idman sahəsi yaradılıb, rahat oturacaqlar quraşdırılıb. Parkda yeni dekorativ ağaclar və kollar əkilib, güllərdən müxtəlif kompozisiyalar düzəldilib, qazon örtüyü yenilənib. Ərazidə sakinlərin bir-birinə mane olmadan, rahat şəkildə istirahət etmələri üçün ayrıca velosiped və qaçış zolaqları da var. Axşam saatlarında parkın yaxşı işıqlandırılmasını təmin etmək üçün ən müasir işıq dirəklərindən istifadə edilib.



Park aparılan abadlıq işlərindən sonra 2013-cü il dekabrın 13-də yenidən sakinlərin ixtiyarına verilib. 6 hektar sahəni əhatə edən istirahət məkanında yaşı yarım əsrdən çox olan ağaclarla yanaşı, yeni ağac və gül kolları, müxtəlif çiçəklər əkilib, yaşıllıq sahələri salınıb. Parkın mərkəzində heykəltaraş Görüş Babayev tərəfindən hazırlanan "Kitabi-Dədə Qorqud" abidəsi ucaldılıb.

Parkın ən diqqətçəkən məkanlarından biri əraziyə xüsusi ecazkarlıq bəxş edən süni göldür. Gölün yuxarı hissəsində isə süni şəlalə yaradılıb. On min kvadratmetrə yaxın əraziyə təbii yaşıl örtük döşənib, parkda müasir işıqlandırma sistemi qurulub, oturacaqlar qoyulub.

Parka istirahətə gələnlərin xüsusi qayıqlarla gəzintiyə çıxa bilmələri də mümkündür.





Park 1980-ci ildə yaradılıb. Ərazisi 1,6 hektar sahəni əhatə edir. Parkda heykəltaraş Münəvvər Rzayevanın müəllifi olduğu Ayna Sultanovanın heykəli ucaldılıb. Əsaslı yenidənqurmadan sonra ərazi təmizlənib, yeni yaşıllıqlar salınıb, ağaclar, bəzək kolları və müxtəlif güllər əkilib. Sakinlərin tam rahatlığı üçün yeni söhbətgahlar, oturacaqlar, müasir işıq dirəkləri və idman qurğuları quraşdırılıb. Parkda uşaqlar üçün oyun meydançası mövcuddur.







Paytaxtımızın ən gözəl məkanlarından olan Heydər Əliyev parkı Heydər Əliyev Sarayının qarşısında yerləşir. Ərazidə 82 illik yubileyi münasibətilə Ümummilli Liderin heykəli ucaldılıb. Hündürlüyü 5,2 metr olan bürünc heykəl 6 metrlik mərmər postament üzərində quraşdırılıb.Kompleksin 23 min kvadratmetrlik böyük bir hissəsi mərmər daşlarla örtülüb. Parkdakı yaşıllıqlar, rahat oturacaqlar, müxtəlif ağac və gül kolları, mərmərdən olan orijinal fontanlar bu ərazini sakinlər üçün təkrarolunmaz məkana çevirib.

Paytaxtın mərkəzində, əhalinin ən sıx yaşadığı ərazidə yerləşən park sakinlərin sevimli istirahət guşələrindən biridir. 4600 kvadratmetr sahəni əhatə edən ərazidə həm böyüklərin, həm də uşaqların istirahəti üçün hər cür şərait yaradılıb. Parkın ortasında qurulmuş fəvvarə hər zaman yaşıllıqlar içərisində olan məkana xüsusi gözəllik bəxş edir. Burada sakinlərin dincəlməsi üçün rahat, orijinal dizaynlı oturacaqlar yerləşdirilib.

Parkda 2012-ci il fevralın 21-də xalq qəhrəmanı Koroğlunun Xalq rəssamı, heykəltaraş Tokay Məmmədov tərəfindən bürüncdən hazırlanmış 23 metrlik abidəsinin açılışı olub. Bununla yanaşı, ərazidə geniş abadlıq və yaşıllaşdırma işləri aparılıb, müasir işıqlandırma sistemi quraşdırılıb, müxtəlif ağac və gül kolları əkilib. Ümumi sahəsi 1,3 hektar olan parkın 4620 kvadratmetrlik ərazisinə qranit plitələr döşənib. Əhalinin istirahəti üçün hər cür şərait yaradılıb.

HÜSEYN CAVİD

Paytaxt sakinlərinin sevimli istirahət guşələrindən olan bu park Elmlər Akademiyası metro stansiyasının yaxınlığında yerləşir. 1993-cü ildə parkda görkəmli şair və dramaturq Hüseyn Cavidin Xalq rəssamı, heykəltaraş Ömər Eldarov tərəfindən hazırlanmış abidəsi ucaldılıb. Park 2008-ci ildə əsaslı təmir olunduqdan sonra ərazidə sakinlərin rahat istirahəti üçün oturacaqlar qoyulub, yeni yaşıllıq zolaqları salınıb, bəzək kolları əkilib. İki hektardan artıq ərazini əhatə edən istirahət məkanında 50 metr uzunluğu, 15 metr eni olan fəvvarə quraşdırılıb, hovuzlara mərmər və qranit döşənib.

HÜSEYN CAVİD





Məhəllələrarası parklar

Paytaxtımızın gözəlliyini yalnız şəhərin geniş ərazilərini, mərkəzi və mərkəzə yaxın hissələrini əhatə edən böyük parklar, yaşıllıq massivləri, meydançalar və bulvar təmin etmir. Bu gözəllikdə artıq bir müddətdir ki, məhəllələrarası parkların və yaşıllıqların da öz payı var. Bakıda yaşayış məntəqələrinin irimiqyaslı abadlaşdırılması ilə bağlı Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin rəhbəri Leyla Əliyevanın təşəbbüsü əsasında nümunəvi məhəllələrin və məhəllələrarası parkların yaradılması prosesi sürətlə inkişaf edir. Hektarlarla ərazini əhatə edən, digər böyük parklardan heç də fərqlənməyən bu yaşıl guşələr insanların həyatını daha da rahatlaşdırıb, eyni zamanda da ekoloji vəziyyətin yaxşılaşmasına xidmət edir. Bu təşəbbüsün nəticəsi olaraq şəhərimizdə bu günədək 200-dən çox nümunəvi məhəllə yaradılıb. Bakı şəhər sakinlərinin istəklərinə uyğun olaraq bu proses hələ də aktiv şəkildə davam etdirilməkdədir.

Binaların bloklarından birbaşa yaşıllıqlar qoynuna çıxmaq, hər bir yaş kateqoriyasının maraqlarının nəzərə alındığı parklarda dincəlmək və səmərəli vaxt keçirmək şəhər sakinlərinin çoxdan arzusunda olduğu bir şərait və rahatlıqdır.

IDEA

Gözəlləşən Bakımız

Gözəlləşən Bakımızın simasına gözəllik qatan, sakinlərin və gələn qonaqların rahatlığını təmin edən parklar, xiyabanlar, istirahət guşələri və bağlar eyni zamanda şəhərin ekoloji vəziyyətinə müsbət təsir edən əsas amillərdəndir. Prezident İlham Əliyevin Azərbaycanın inkişafı ilə bağlı müəyyənləşdirdiyi strategiyada Bakının dünyanın ən gözəl şəhərlərindən birinə çevrilməsi istiqamətində görülən işlərin miqyası ilbəil daha da artır. Bunların nəticəsi olaraq, möhtərəm prezidentimizin dediyi kimi: "Bakı şəhəri artıq parklar, bağlar şəhərinə" çevrilib.

Mövcud istirahət məkanları bərpa olunur, abadlaşdırılır, yeni parklar salınır. Köhnə parkların yenidən abadlaşdırılması, müasir səviyyədə təmir olunaraq sakinlərin istifadəsinə verilməsi, yaşıllıqlar, idman və uşaq meydanlarının salınması istiqamətində mühüm addımlar atılır. İnanırıq ki, insanların rahatlığına, asudə vaxtlarını daha gözəl keçirmələrinə, uşaqların əyləncə dolu anlar yaşamalarına xidmət edən bu guşələr istirahət mədəniyyətinin formalaşmasına, insanların sosial rifahının yaxşılaşmasına və təbiətlə daha sıx təmas qurmalarına səbəb olacaq.

Mündəricat

11 ◆ BAKININ SİMASI – YAŞIL PARKLARIMIZ
12 ◆ AĞ ŞƏHƏR BULVARI
24 ◆ DƏNİZKƏNARI MİLLİ PARK
48 ◆ BAYIL BULVARI
56 ◆ HEYDƏR ƏLİYEV MƏRKƏZİNİN PARKI
76 ◆ ÇƏMBƏRƏKƏND PARKI
90 ◆ NİZAMİ GƏNCƏVİ PARKI
100 ◆ HEYDƏR PARKI
116 ◆ ZƏRİFƏ ƏLİYEVA PARKI
122 ◆ GƏNCLİK PARKI
132 ◆ SEVİRƏM PARKI
150 ◆ MEŞƏ PARKI
166 ◆ MƏRKƏZİ PARK
184 ◆ QIŞ PARKI
194 ◆ DAĞÜSTÜ PARK

206 ◆ ŞƏLALƏ PARKI
220 ◆ FİLARMONİYA BAĞI
236 ◆ SABİR BAĞI
248 ◆ AXUNDOV BAĞI
254 ◆ XAQANİ BAĞI
260 ◆ FƏVVARƏLƏR MEYDANI
274 ◆ SAHİL BAĞI
284 ◆ ZABİTLƏR PARKI
296 ◆ YASAMAL PARKI
306 ◆ ATATÜRK PROSPEKTİNDƏKİ PARK
316 ◆ DƏDƏ QORQUD PARKI
326 ◆ AYNA SULTANOVA PARKI
332 ◆ HEYDƏR ƏLİYEV PARKI
338 ◆ HÜSEYN CAVİD PROSPEKTİNDƏKİ BAĞ
344 ◆ KOROĞLU PARKI
350 ◆ HÜSEYN CAVİD PARKI
358 ◆ MƏHƏLLƏLƏRARASI PARKLAR
361 ◆ GÖZƏLLƏŞƏN BAKIMIZ

BAKI parkları

Buraxılışa məsul: Rafiq Kazımov
Dizayner: Nurlan Nəhmətov
Fotoqraf: Ruslan Teymurfulatov
Redaktor: Gültəkin Cəfərova
Texniki redaktor və korrektor: Sevinc Yusifova
Baş redaktor: Nərgiz Cabbarlı
Texniki direktor: Allahverdi Kərimov
Nəşriyyat direktoru: Sevil İsmayılova

Çapa imzalanmışdır: 05.12.2022. Format: 70x100 1/8.
Ofset çapı. Fiziki çap vərəqi 45,5. Sifariş 22186. Tiraj 500

ŞƏRQ-QƏRB

"Şərq-Qərb" ASC-nin mətbəəsində çap olunmuşdur.
AZ1123, Bakı, Aşıq Ələsgər küçəsi, 17
Tel.: (+99412) 374 83 43
(+99412) 374 73 84
www.eastwest.az
www.fb.com/eastwest.az
info@eastwest.az